DÖVLƏT VERGİ XİDMƏTİ

# Bərbərxanalar, gözəllik salonları, kosmetoloji mərkəzlərin və onların müştərilərinin nəzərinə!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən,01.01.2026-cı il tarixindən etibarən**

- Bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən fiziki şəxs olan istehlakçılara göstərilən xidmətlərə görə ƏDV qaytarılır ("ƏDV geri al" sistemi tətbiq edilir).
- Qaytarılan məbləğ nağdsız qaydada ödənilmiş ƏDV-nin 17,5%-ni, nağd qaydada ödənilmiş ƏDV-nin 5%-ni təşkil edir.

**VACİB QEYD:**

ƏDV ödəyicisi olan bərbərxanalar, gözəllik salonları və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlər üzrə ƏDV-nin bir hissəsi qaytarılır.

ƏDV yalnız ƏDV qeydiyyatında olan vergi

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

ödəyiciləri tərəfindən göstərilən xidmətlər üzrə qaytarılır.

Ödənilmiş ƏDV-nin yuxarıda qeyd olunmuş hissəsinin qaytarılması zamanı təqdim edilən nəzarət-kassa aparatının çeki Vergi Məcəlləsinin 50.8-ci maddəsinin tələblərinə cavab verməlidir.

**ƏDV ödəyicisi olub-olmadığını necə yoxlamaq olar?**

Müştərilər və sahibkarlar:

- ❖ “ƏDV ödəyicisinin axtarışı” elektron xidmətindən
- ❖ “VÖEN-ə və ya ada görə axtarış” elektron xidmətindən

istifadə etməklə vergi ödəyicisinin statusunu yoxlaya bilərlər.

**Nə dəyişdi?**

Dəyişiklikdən əvvəl “ƏDV geri al” sistemi bərbərxanalar, gözəllik salonları, kosmetoloji mərkəzlərin xidmətlərinə şamil olunmurdu.

**BAKI — 2026**